**Sabirabadda fəaliyyət göstərən kafedə keçirilmiş yoxlamaya dair məlumat**

**(5 may 2025)**

Sabirabad rayonu, Qaragüney kəndində fəaliyyət göstərən Bayramov İlqar Musa oğluna məxsus "Dərələyəz" kafesində Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları yoxlama keçirib.

Baxış zamanı kafedə *sanitar-texniki* və *sanitar-gigiyenik* tələblərin pozulduğu, qida məhsullarının saxlanması zamanı temperatur rejiminə əməl olunmadığı, müvafiq təmizlik işlərinin görülmədiyi, işçinin tibbi müayinədən keçmədiyi və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı kafenin fəaliyyəti nöqsanlar aradan qaldırılanadək məhdudlaşdırılıb, rəhbəri inzibati məsuliyyətə cəlb olunub.